**Kamran Nurəddin oğlu Abdullayev**

**UOT:005-027.21; JEL:M10.**

# Rəqəmsal iqtisadiyyatın inkişafının təmin olunması məsələləri

**_Xülasə_**

*Məqalədə Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafının əsas istiqamətlərinə baxılmışdır. Tədqiqatın əsas məqsədi Azərbaycanda rəqəmsal iqtisadiyyatın mühüm istiqamətlərini müəyyənləşdirməkdir. Tədqiqatın metodologiyası kimi təhlil olunan sahə üzrə məlumatların iqtisadi-statistik üsullarla araşdırılması götürülmüşdür. Məqalənin tətbiqi əhəmiyyəti alınan nəticələrin ölkədə rəqəmsal iqtisadiyyatın inkişafında istifadəsinin məqsədəuyğunluğudur. Aparılmış tədqiqat əsasında elmi yeniliklər kimi rəqəmsal iqtisadiyyatın inkişafının ölkənin milli iqtisadiyyatının rəqəbətqabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərməsi elmi baxımdan əsaslandırılmışdır. Həyata keçirilmiş təhlil əsasında rəqəmsal iqtisadiyyatın inkişafı yönümündə mövcud problemlər göstərilmiş və onların aradan qaldırılması istiqamətləri müəyyənləşdirilmişdir.*

***Açar sözlər:*** *inteqrasiya,innovasiya, milli iqtisadiyyat, iqtisadi inkişaf, iqtisadi tənzimləmə, iqtisadi islahatlar*

## Giriş

Hal-hazırda Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafı etdirilməsi əsas prioritet məsələlərdən hesab olunur. Məsələn, son illər ölkəmizdə davamlı olaraq rəqəmsal iqtisadiyyatın formalaşdırılması üçün rəqəmsal təhlükəsiz infrastruktur sisteminin qurulması istiqamətində ciddi tədbirlər həyata keçirilməkdədir. Müasir iqtisadi şəraitdə rəqəmsal iqtisadiyyatın inkişafının ölkənin ÜDM-nin artım tempinin yüksəlməsinə birbaşa təsirI vardır. İnkişaf etmiş ölkələrdə "rəqəmli iqtisadiyyat"ın əsas məqsədi milli iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların sistemli inkişafı və tətbiqini həyata keçirmək hesab olunur. Qeyd edilən sahələrə xüsusilə iqtisadi sahələr, sosial fəaliyyət kimi sahibkarlıq, dövlət idarəetməsi, sosial sfera və şəhər təsərrüfatı aid olunur. Ümimiyyətlə, milli iqtisadiyyatın rəqəmsal iqtisadiyyata keçidi bizim qlobal iqtisadi məkanda rəqəbətqabiliyyətli olmağımıza və milli təhlükəsizliyin təmininə imkan verməlidir. Əksər beynəlxalq iqtisadi tədbirlərdə, xüsusən, İsveçrənin Davos şəhərində keçirilən sonuncu Beynəlxalq İqtisadi Forumda dördüncü sənaye inqilabına keçidin zəruriliyi qeyd olunmuşdur. Eyni zamanda onun əsas hədəfinin rəqəmsal iqtisadiyyata keçidin tam təmin edilməsi hesab olunmuşdur.

## Rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinin əsas xüsusiyyətləri

Beynəlxalq İqtisadi Forumun son hesabat üzrə məlumatlarının təhlili onu göstərir ki, rəqəmsal sektorun ÜDM-də payının yüksək olduğu ölkələr C.Koreya (12%), İsveç (8,6%), Finlandiya (8,3%), ABŞ (7,4%), B.Britaniya (7,1%) təşkil edir. Bundan başqa hesabatda göstərilir ki, yaxın dövrlərdə milli iqtisadiyyatda yaranan yeni dəyərin 70%-i rəqəmsal sektorun payına düşəcəkdir. "Google" şirkətinin elmi-statistik təhlil proqnozlarında qeyd olunur ki, təkcə Cənub-Şərqi Asiya ölkələrində rəqəmsal iqtisadiyyatın payı 2025-ci ilə qədər üç dəfə artacaqdır. Nəticədə rəqəmsal iqtisadiyyatın həcmi təxminən 240 milyard ABŞ dollarına çatacaqdır.



©Kamran Nurəddin oğlu Abdullayev i.f.d., dos. AMEA İqtisadiyyat İnstitutu, "Xidmət sahələrinin inkişafı problemləri" şöbəsi. E-mail: xazar_baki@mail.ru
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Müasir dövrdə ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, Çin, Rusiya kimi dövlətlər rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinə daha çox diqqət ayırırlar [6]. Müasir qloballaşan dünyada milli iqtisadiyyatımız müasir iqtisadi çağırışlara cavab verməlidir [2]. Artıq beynəlxalq rəqabətqabiliyyətlilik göstəricisi ölkələrin innovativ imkanlarını dəyərləndirilməklə, innovativ ölkə kimi onların müəyyənləşdirilməsinə imkan verir. Azərbaycanda da rəqəmsal bazarların uyğunlaşdırılması prosesi onlayn xidmətlərin daha münasib qiymətə və daha geniş seçimlə genişləndirilməsinə səbəb olacaqdır. Nəticədə yaxın illərdə ölkədə investisiya axınlarının, ticarət əlaqələrinin və məşğulluq səviyyəsinin yüksəlməsnə şərait yaranacaqdır. Ölkəmizdə beynəlxalq təcrübə nəzərə alınmaqla rəqəmli iqtisadiyyatın formalaşdırılması və inkişafı məqsədilə "rəqəmli bazarların uygunlaşdırılması" istiqamətində aparılan tədbirləri çox səmərəli hesab etmək mümkündür. Qeyd edək ki, Azərbaycan Respublikası Avropa Birliyinin dəstəyi ilə rəqəmsal iqtisadiyyatın genişləndirilməsi məqsədilə həyata keçirilən altı istiqamətin hər birində iştirak edir. Ölkəmiz region dövlətləri arasında "İKT innovasiya və startap ekosistemi" istiqaməti və "e-gömrük" alt istiqaməti üzrə əlaqələndirici ölkə kimi fəaliyyətini davam etdirir [1].

**Şəkil 1.**

**Bəzi postsovet və region dövlətlərinin Qlobal Rəqabətlilik İndeksi üzrə sıralaması**




Beynəlxalq İqtisadi Forumunun dünya ölkələrinin rəqabətqabiliyyətliliyi səviyyəsini əks etdirən "Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2019" hesabatına görə, hər il ölkələrin mövqelərində ciddi irəliləyiş qeydə alınmışdır [6]. Ölkəmizin milli iqtisadiyyatı inkişaf səviyyəsinə görə 141 ölkə arasında 58-ci yerdə formalaşmışdır (Şəkil1). Azərbaycan qlobal rəqabətqabiliyyətlilik indeksi üzrə dünya sıralamasında öz mövqeyini 2019-2020-ci illərdə əvvəlki illə müqayisədə xeyli yaxşılaşdırmışdır. Azərbaycan qeyd edilən indeksə görə Gürcüstan, Ermənistan, Tacikistan, Ukrayna, Qazaxıstan, İran, Ermənistan kimi ölkələri qabaqlamışdır. Yalnız Rusiya bu göstəriciyə görə ölkəmizdən irəlidə olmuşdur. Son illər ölkəmizdə innovasiyanın sosial-iqtisadi modellərinin təmin olunmasında innovasiya və investisiya fəaliyyətinin yüksəldilməsi əsas prioritet istiqamətlərdən biri kimi qəbul olunur. Azərbaycanda beynəlxalq təcrübə nəzərə alınmaqla innovasiyalı inkişafla bağlı məsələlərin öz əksini son illər qəbul edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nda, eləcə də, "Azərbaycan 2020:Gələcəyə baxış" inkişaf konsepsiyasında tapdığını xüsusi qeyd etmək lazımdır .



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 2**

**Qlobal Rəqabətlilik Hesabatı üzrə innovativ şirkətlərin iqtisadi artım göstəricilərinə görə bəzi ölkələrin mövqeləri**




Son illər üzrə Qlobal Rəqabətlilik Hesabatına baxsaq görərik ki, dünya ölkələri arasında İsrail və ABŞ kimi ölkələr innovativ şirkətlərin iqtisadi artım göstəricilərinə görə ilk yerlərdədir [6]. Postsovet məkanı ölkələri arasında Azərbaycan digər ölkələrlə müqayisədə daha qabaqda 21-ci yerdə qərarlaşmışdır (Şəkil 2). Bunun da əsas səbəbi ölkəmizdə iqtisadi sahələr üzrə innovativ inkişafa daha çox diqqət ayrılması hesab olunur. Nəzərə alaq ki, innovasiyaların tətbiqi yolu ilə inkişaf iqtisadi və sosial sahədə ciddi dəyişikliyə təminat yaradan müasir texnologiyaların tətbiqinin sürətlənməsini özündə ehtiva edir. Nəticədə nanotexnalogiyaların, biotexnologiyaların, yeni materialların texnologiyalarının hazırlanmasında informasiya-kommunikasiya texnologiyalarının rolu artır. Azərbaycanın son illər milli innovasiya sisteminin inkişafı daha çox nəzərə çarpmaqdadır. Belə ki, ölkəmizdə idxal məhsullarının ixrac məhsullarının həcmindən yüksək olması, ÜDM-in strukturunda elmtutumlu məhsulların xüsusi çəkisinin təqribən 0.2%-ə yaxın olması, xarici ölkələr üzrə ixrac məhsulları içərisində neft-qaz, neft emalı məhsullarının 90%-dən yuxarı olması, emal sənayesində əsas istehsal fondlarının yüksək aşınma səviyyəsi və s. problemlər hələ də mövcuddur. Məhz buna görə də bu sahədə yaranmış problemlər tədricən aradan qaldırılmalıdır. Nəzərə almaq lazımdır ki, milli innovasiya sisteminin (MİS) inkişafı onun regional və qlobal sistemlərə inteqrasiyası ilə birbaşa bağlıdır. Məsələn, hal-hazırda Avropa Birliyi ölkələri ayrı-ayrı iqtisadi sahələr üzrə ümumi innovasiyaların inkişaf strategiyası və ilk növbədə innovasiya sistemləri, insan resurslarının inkişafı, İKT və s. istiqamətlərdə fəal iqtisadi siyasət həyata keçirməkdədirlər.

Aparılmış təhlillər onu göstərir ki, Azərbaycan Respublikasının qeyri-neft sektoruna yönəldilmiş xarici investisiyaların həcmində 2005-ci ildən başlayaraq 2019-cu ilə kimi ciddi artım nəzərə çarpmışdır [5]. Məsələn, ölkə üzrə 2005-ci qeyri-neft sektoruna 230,5 mln. ABŞ dolları, 2015-ci ildə 860,4 mln. ABŞ dolları, 2019-cu ildə 930,1 mln. ABŞ dolları yönəldilmişdir (Şəkil 3). Azərbaycanda davamlı olaraq həyata keçirilən məqsədəuyğun iqtisadi tədbirlər nəticəsində ölkəyə xarici investorlar tərəfindən ayrı-ayrı milli iqtisadi sahələr üzrə xarici investisiya qoyuluşu artmışdır. Bu da Azərbaycanın beynəlxalq reytinq təşkilatlarında mövqeyinin yüksəlməsinə səbəb olmuşdur.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 3.**

**Son illər Azərbaycan Respublikasının qeyri-neft sektorunun inkişafına yönəldilmiş xarici investisiyalar (mln. ABŞ dolları ilə)**




Aparılmış təhlillər onu göstərir ki, texnoparkların, texnoloji inkubatorların, innovasiya mərkəzlərinin, aqroparkların fəaliyyəti milli innovasiya sisteminin inkişaf istiqamətlərinə əsaslanmalıdır. Məhz bu halda dövlətin innovasiya siyasəti daha da genişlənə bilir [5]. Nəzərə almaq lazımdır ki, innovasiya yönümlü kiçik sahibkarlığın inkişafında mühüm rol oynayan kommersiya qurumları qismində biznes inkubatorlar texnoparkların, demək olar ki, fəaliyyətinin əsası kimi qəbul olunur. Bundan başqa ixtisaslaşma səviyyəsindən asılı olaraq innovasiya fəaliyyəti bibaşa subyektlərinin fəaliyyətinin səmərəliliyini müəyyənləşdirən əsas amildir. İnnovasiya fəaliyyətinin ixtisaslaşdırılmış subyektləri qismində texnoparkların rolu milli iqtisadiyyatda çox böyükdür [3]. Əsasən texnopraklar bir qayda olaraq regionlar üzrə texnoloji zonalarda formalaşdırılır. Texnoloji zonalar, mahiyyət etibarı ilə ölkənin innovativ fəaliyyət yönümlü resurslarının, o cümlədən informasiya-kommunikasiya imkanlarının cəmləşdiyi sahə hesab olunur. Qabaqcıl ölkələrin təcrübəsi onu göstərir ki, texnoparklar elmi labaratoriyaların, innovasiya yönümlü kiçik müəssisələrin, geniş fəaliyyət dairəsinə malik sənaye müəssisələrinin birgə və rəqabətədavamlı fəaliyyətinə daim əlverişli şərait yarada bilir [4].

Azərbaycan Respublikasında son illər regionların inkişafı ilə əlaqəli bir sira dövlət proqramları qəbul olunmuşdur. Qəbul olunan dövlət proqramları davamlı olaraq regionların inkişafında mühüm rol oynamışdır. Məsələn, son "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" regionların inkişafında, xüsusən işğaldan azad olmuş ərazilərin dirçəldilməsi istiqamətində mühüm rol oynamaqdadır [1]. Sonuncu qəbul olunmuş dövlət proqramında regionlarda infrastruktur sahələrinin fəaliyyətinin yaxşılaşdırılması, mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin ixrac yönümül sahələr üzrə genişləndirilməsi əsas prioritet hesab olunmuşdur. Ölkəmizdə iqtisadi rayonlar üzrə yaşayan əhalinin məşğulluğunun təmin olunması və sosial vəziyyətinin yüksəldilməsi məqsədilə də uğurlu iqtisadi tədbirlər həyata keçirilməkdədir.

Ölkədə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması iqtisadi sahələrin fəaliyyətinə birbaşa müsbət təsirini göstərmişdir. Son dövrlər regionlarda investisiya qoyuluşunun yüksəlməsinə, əhalinin məşğulluğunun artırılmasına əlverişli şərait yaranmışdır. 2016-cı ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi" də regionların inkişafı istiqamətində qəbul olunmuş mühüm sənəd hesab olunur. Müvafiq sənəd 2016-2021-ci illər ərzində iqtisadi rayonların inkişafında, mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, iqtisadi sahələrin rəqabətqabiliyyətinin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yüksəldilməsində mühüm rol oynamışdır. Qeyd olunan Strateji Yol Xəritəsində 2025-ci ilədək ölkənin iqtisadi sahələrinin rəqabətqabiliyyətliliyinin daha da gücləndirilməsi nəzərdə tutulmuşdur.

**Azərbaycanda regionların innovativ iqtisadi inkişaf perspektivləri**

2021-ci ildə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ində həyata keçiriləcək iqtisadi tədbirlər yaxın on il ərzində ölkəmizin regionlarında iqtisadi sahələrinin inkişafında mühüm rol oynayacaqdır. Qeyd edilən sənəd üzrə yaxın dövrlərdə aşağıdakı istiqamətlər üzrə məqsədəuyğun tədbirlər həyata keçiriləcəkdir: rəqabət imkanlı iqtisadiyyatın təşkili; sosial ədalətə əsaslanan cəmiyyətin yaradılması; müasir innovasiyaların iqtisadi sahələr üzrə tətbiqi; yeni işğaldan azad olunmuş regionlara qaçqın və köçkünlərin qayıtmasının həyata keçirilməsi; "yaşıl artım" ölkəsinin yaradılması və s.

Müstəqillik əldə etdiyimiz dövrdən başlayaraq ölkəmizin paytaxtı Bakı şəhəri iqtisadi inkişaf baxımından regionların inkişafını qabaqlamışdır. Hazırda regionların inkişafının paytaxtın inkişaf səviyyəsinə çatdırılması vacibdir. Qeyd edilən prosesləri təmin etmək üçün regionlarda zəruri olan bütün iqtisadi və sosial infrastruktur təsisatlarının formalaşdırılması zəruridir. Azərbaycanda iqtisadi rayonlar üzrə sahibkarlıq fəaliyyətinə "şəffaf" iqtisadi şərait yaradılarsa, onların fəaliyyəti daha sürətlə genişlənə bilər. Bu zaman əhalinin məşğulluq səviyəsi yüksələr, regional ərazilərdə yüksək yaşayış standartları formalaşa bilər. Nəticədə bütün regionların ümumi milli gəlirin tərkibində payı artacaqdır. Azad olunmuş ərazilərdə yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin beynəlxalq bazarlara çıxış imkanlarını genişləndirəcəkdir. Statistik məlumatların təhlili onu göstərir ki, Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı son dövrlər artım müşahidə olunmaqdadır [5]. Məsələn, 2019-cu ildə ölkəmizdə ümumi sahibkarların sayı 271304 nəfər olmuşdur ki, onun da strukturunda 262622 nəfəri mikro, 5956 nəfəri kiçik, 2726 nəfəri isə orta sahibkarlıq subyektləri təşkil etmişdir. Bundan başqa Bakı şəhəri üzrə sabikarlıq subyektlərinin sayı 2019-cu ildə 129989 nəfər olmuşdur. Bakı şəhəri üzrə ümumi sahibkarlıq subyektlərinin strukturunda 124317 nəfəri mikro, 4026 nəfəri kiçik, 1646 nəfəri orta sahibkarlıq subyektlərinin payına düşmüşdür. Eyni zamanda Abşeron iqtisadi rayonu üzrə sahibkarların sayı 22786 nəfər, Gəncə-Qazax iqtisadi rayonu üzrə 24825 nəfər, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 13327 nəfər olmuşdur. Qeyd edək ki, Lənkəran iqtisadi rayonu üzrə bu göstərici 13653 nəfər, Quba-Xamaz iqtisadi rayonu üzrə 11270 nəfər, Aran iqtisadi rayonu üzrə 37403 nəfər, Yuxarı-Qarabağ iqtisadi rayonu üzrə 4287 nəfər təşkil etmişdir. Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə sahibkarların sayı 381 nəfər, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 5937 nəfər, Naxıvan Muxtar Respublikası üzrə 7446 nəfər olmuşdur. Uğurla həyata keçirilən iqtisadi tədbirlər nəticəsində ölkəmizin regionlarında mikro, kiçik və orta sahibkarların sayı da davamlı olaraq artmaqdadır. Bunun da əsas səbəbi qeyri-neft sektoruna aid iqtisadi sahələrin regionlarda sürətlə inkişaf etməsidir. Son illər Azərbaycan Respublikasının ümumi, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı üzrə ciddi dəyişiklik qeydə alınmışdır. Məsələn, 2019-cu ildə ölkə üzrə ümumi sahibkarların sayı 271304 nəfər təşkil etmişdir. Onların strukturunda da mikro sahibkarların sayı 262622 nəfər, kiçik sahibkarların sayı 5936 nəfər, orta sahibkarların sayı 2726 nəfər olmuşdur (Şəkil 4). Aparılmış təhlil onu göstərir ki, ölkəmizdə kiçik və orta sahibkarlıq fəaliyyətinin genişləndirilməsi zəruridir. Məhz bu halda ölkəmizin qeyri-neft sektoru üzrə iqtisadi inkişafında mühüm irəliləyiş qeydə alına bilər.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 4.**

**Azərbaycan Respublikası üzrə 2019-cu ildə sahibkarlıq subyektlərinin sayı üzrə dəyişən dinamika**




**Nəticə**

Azərbaycan Respublikasında regionlarda sahibkarlıq fəaliyyətinin davamlı olaraq inkişafı, məşğulluq sahəsində mövcud problemlərin aradan qaldırılmasında da mühüm rol oynayır. Ümumiyyətlə, məşğulluq siyasətinin mühüm istiqamətlərindən biri yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərin aradan qaldırılmasıdır. Məhz məşğulluq səviyyəsinin yüksəldilməsini təmin edən şəraitin formalaşdırılması da regionların inkişafında mühüm rol oynayır. Bu baxımdan iqtisadi regionlar üzrə innovasiya yönümlü mikro, kiçik və orta sahibkarlığın inkişafına yönəlmiş tədbirlərin dəstəklənməsi vacibdir [1]. Ümumiyyətlə, aparılmış araşdırma onu göstərir ki, ölkəmizdə rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

- ölkəmizin bütün ərazisini əhatə edən mobil 5G internet şəbəkəsinin təşkili, iqtisadi sahələr üzrə robotlaşma səviyyəsinin, kibertəhlükəsizliyin artırılması, süni intellektin istifadə edildiyi sahələrin genişləndirilməsi, rəqəmsal texnologiyalar əsasında ixracyönümlü rəqəmsal məhsulların yaradılması;
- rəqəmsal iqtisadiyyat üzrə inkişafı təmin etmək üçün milli İKT sektorunun fəaliyyət dairəsinin genişləndirməsi, informasiya təhlükəsizliyinin yüksəldilməsi, yeni milli innovativ texnologiyaların yaradılması məqsədilə beynəlxalq səviyyədə əməkdaşlığın gücləndirilməsi;
- regionlarda, xüsusən işğaldan azad olunmuş ərazilərdə inovasiya sahibkarlığının genişləndirilməsi üçün bu sahəyə yerli və xarici investisiyaların yönəldilməsinin stimullaşdırılması;
- rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində yaxın perspektiv dövrü əhatə edən yeni dövlət proqramlarının qəbul edilməsi.



**Ədəbiyyat**

1. Abdullayev K.N. Milli iqtisadiyyatın innovasiyalı inkişafının əsas xüsusiyyətləri / "Tikintinin iqtisadiyyatı və menecment" (Elmi-praktiki jurnal), AMİU, Bakı.: AMİU-nin nəşr., №1, 2020.
2. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие. М.: Восток-Запад, 2018, 224 с.
3. Инновационный менеджмент. Под ред. С.Д.Ильиновкой. М., ЮНИТИ, 2014, s.269
4. Иванова Н.Т. Малый инновационный бизнес в странах развитой рыночной экономики // РЭЖ. - Москва., Наука,2010. - №12. - с. 76-81
5. www.stat.gov.az/ statistik göstəricilər 2020
6. www3.werforum.org/ World Economic Forum, The Global Competitiveness Report 2019. Geneva.: WEF, 2019, 675 p.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Камран Нуреддин оглы Абдуллаев***

***Вопросы обеспечения развития цифровой экономики***

***Резюме***

*В статье рассмотрены основные направления развития цифровой экономики в Азербайджане. Основная цель исследования определение основных направлений развития цифровой экономики в Азербайджане. Методология исследования основано на изучении данных по анализируемой области экономическими и статистическими методами. Практическое значение статьи заключается в целесообразности использования полученных результатов в развитии цифровой экономики в стране. На основание исследования научно обосновано, что развитие цифровой экономики стране в качестве научной новизны положительно влияет на повышение конкурентоспособности национальной экономики. На основе анализа выявлены существующие проблемы в развитии цифровой экономики и определены направления их устранения.*

***Ключевые слова:*** *интеграция, инновации, национальная экономика, экономическое развитие, экономическое регулирование, экономические реформы.*

***Kamran Nureddin oglu Abdullayev***

***Issues of ensuring the development of the digital economy***

***Summary***

*The article discusses the main directions of the development of the digital economy in Azerbaijan. The main purpose of the study is to determine the main directions of development of the digital economy in Azerbaijan. The methodology of the study is based on the study of data in the area under analysis by economic and statistical methods. The practical value of the article lies in the purposeful use of the results obtained in the development of the digital economy in the country. The research is based on the fact that the development of digital economy in the country as a scientific innovation has a positive impact on the competitiveness of the national economy. Based on the analysis, existing problems in the development of the digital economy and the direction of their elimination are identified.*

***Key words:*** *integration, innovation, national economy, economic development, economic regulation, economic reforms*



***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***
***Daxil olub: 14.07.2021.***
***Çapa qəbul olunub: 22.07.2021.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*